# AĞACƏFƏR "ŞƏRHİN POETİK NOTLARI"NDA



**Şəddat CƏFƏROV**
***iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru, Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü, Beynəlxalq Yazarlar Birliyinin üzvü***

Bu günlərdə şair-publisist dostum Əli Rza Xələflinin *"Şərhin poetik notları"* adlı kitabını nəşr etdim. Bu kitabın bir çox məziyyətləri ona xüsusi diqqət ayırmağımı vacib etdi. Mən uzun illərdir ki, kitab çapı fəaliyyəti ilə məşğul oluram. Ancaq bu kitabın yüksək poliqrafik səviyyədə nəşr olunması üçün xüsusi diqqət göstərdim, bunun da səbəbləri var. Əvvələ bu kitabı Xələflinin ədəbi-publisistik yaradıcılığında xüsusi bir mərhələ hesab edirəm. Çünki bir kitabın içərisində Xalqımızın yetirdiyi tanınmış şairlərin, xüsusilə müasirimiz olan poeziya ustadlarının portret cizgilərini əks etdirən, eyni zamanda söz-sənət sahiblərinin qələm incilərini incələyən yazılar sözün həqiqi mənasında könül oxşayandır.

Şairlər cəmiyyətin həssas insanlarıdır. Onlar hər vaxt əhatəsində olduqları insanlardan diqqət və qayğı umur, sözlərinə dəyər gözləyirlər. Üstəlik şairlərin çoxlu fanatları da var, onların sözünə sevdalı olanlar da bu kitabı arayıb axtaracaqlar. Deməк, *"Şərhin poetik notları"* kitabı kifayət qədər böyük sayda söz sevdalılarının əlindən keçəcək nəzərini özünə cəlb edəcək. Bu kitaba yanaşmamın məsuliyyət hissinin bir tərəfi də bununla bağlıdır.

*"Şərhin poetik notları"*... kitabı adı çox şey deyir. Doğrudur, müəllif *"şərh"* ifadəsini kitabın adına çəkib. Amma əslində bu kitabda sənətkarların özünə psixoloji sirlər yığmış düşüncələrinin mahiyyətinə varılır. O başqa məsələdir ki, Əli Rza Xələflinin ədəbi-bədii sözü şərhlərinin özü də bir ayrı aləmdir. İnanıram ki, hər kəs bu kitabda hansısa bir şairdən verilmiş bir parçanı oxuyub yüksək zövq alacaq. Və eyni zamanda elə həmin parçaların mahiyyətinin açımına həsr olunmuş səhifələr də oxucunu öz cazibəsində saxlayacaq.

* * *

Kitabın içərisində verilmiş yazılardan birincisi ustad şairimiz Ağacəfər Həsənliyə həsr olunub. Yazının adı da orijinaldır: *"özünütəsdiqin gücü, Vaxtın inkarı... düşüncənin meyarı..."* Ümumiyyətlə, bu sərlövhənin özü kifayət qədər məna yükünə malikdir. Axı hər bir şairin poetik örnəyi cəmiyyətin mənəvi mühitinin əks-sədası kimi qəbul olunsa da, eyni zamanda həm də müəllifin özünütəsdiq gücünü göstərir. Şairlər üçün vaxt, zaman məhdud deyil. Şairin bir misrasında ayrı-ayrı zamanlar çox asanlıqla bir-birinə qovuşur. Yəni şair vaxtı doğma kimi qəbul etmir. Onun üçün vaxt durğun deyil, axıcıdır. Şairin vaxtın fövqündə dayandığı üçün ona vaxt yox, düşüncənin tapındığı fəlsəfi kriteriyalar daha dəqiq ölçüdür.

Əli Rza Xələfli yazıya gətirdiyi sənətkarları yaxşı tanıyır. Həm də təkcə yaradıcılıqlarını yox, şəxsiyyət, xarakter baxımından da onların təbiətinə yaxından bələddir.

Bildiyimə görə, o, ustad Ağacəfər Həsənli ilə bir dövrdə təhsil alıb, eyni təhsil ocağında oxuyublar. Şübhəsiz, onların ilk tanışlığı da elə o dövrdən başlanıb. Əli Rza Xələfli həmin günləri xatırlayıb mənə danışır ki: *"Lerikin Çayrud kəndindən olan qrup və otaq yoldaşı İdris Nemət oğlu Əliyev Ağacəfərin şeirlərini əzbər deyərdi. Və elə mən də həmin dövrdən onun şeirlərinin oxucusu, yaradıcılığının izləyicisi olmuşam"*. Əli Rzanın bu həyat faktı da mənim üçün maraqlı oldu. Demək, sənətkar haqqında söz deməyin də özünəxas məqamı var. Bu məqamı gözləyə-gözləyə Xələfli Ağacəfər haqqında yazısına *"Şərhin poetik notları"*nda gəlib çatıb.

Özü də necə çatıb. Yazı boyu düşüncələr dağ çayının ahəngi kimi süzülüb gəlir. Müəllif yazısının əvvəlində özünün bir dördlüyünü təqdim edir:

Ha yoğuraq, ha yapaq, bitməz sözün sarayı,
Ümid-ümid vaxt güdər çiçək ayı, qar ayı.
Zaman bizi sovursa, küləklərin ağzında
Kitab-kitab yaşayar qəlbimizin harayı.

Müəllifdən gələn bu hissləri portretə çevirmək üçün düşüncəyə elə də zəhmət tələb olmur. Misralar bütövləşir və portreti bütün aydınlığı ilə göstərə bilir. Mənə elə gəldi ki, elə o dördlüyün yaratdığı portretdə Ağacəfəri tam aydınlığı ilə gördüm.

Xələflinin hər hansı bir şair haqqında qeydləri ünvanı birbaşa göstərmir. Biz bu qeydlərin düşüncə axarında bütövlükdə cəmiyyəti və onun içərisində xüsusi nüfuz dairəsi olan şairin özünü də görürük.

*"Şərhin poetik notları"*nı həyəcansız oxumaq olmur. Çünki bütün məqamlarda şair cəmiyyətin fövqündə dayanır. Oradan - yəni ucalıqdan cəmiyyətin bütün tərəflərini seyr edir. Xələfli də düşüncələrində belə bir ucalıqda dayanır. Elə onun qeydləri də şairin ruhunu həmahəng poetik duyğularla ifadə edir. Yazıda oxuyuruq: *"Çox vaxt həyatı səssiz nəzərlərlə süzən cəmiyyətin qalmaqallarına küsüşmələrə, barışmalara, çaxnaşmalara, yaxud, bezdirici sükuta bəsirət aləmindən baxıb bəzən, istehzalı, bəzən təqdiredici, bəzən də mahiyyəti bilinməyən münasibəti ilə tanınan adamlara öz aləmindədir, - deyirik. Kimlərsə öz aləmində olmağı biganəlik kimi də qavraya bilər. Ancaq bizə elə gəlir ki, belə adamlar cəmiyyəti bütövlüklə öz varlıqlarına köçürür. Hətta təkcə cəmiyyəti yox, cəmiyyəti formalaşdıran mühiti təbiəti ilə birlikdə öz aləminə sığdıra bilir. Və bu aləmin içində bəlkə də ən qaynar yerində özünü görür. O, kiminsə tərəfində durmur. O özü ayrıca bir tərəfdir. Onu əhatə edən tərəflərin yaxşılarını əxz edir, yamanlarına qarşı hissi, daxili emosiyası ilə sipər olur. Mənə qalsaydı, Azərbaycanın ünlü şairi, ustad sənətkarı Ağacəfər Həsənlini öz aləmində olan adam kimi təqdir edərdim. Axı Ağacəfər cəmiyyət üçün təkcə adam deyil, o, həm də, cəmiyyətin mənəvi mühitini müəyyən mənada istiqamətləndirən və buna gücü çatan şairdir. Əlbəttə, o cəbhə açıb hər kəsi öz prinsiplərinə tabe etmək iddiasında da deyil. Elə bu səbəbdən yuxarıdakı məsəli bir qədər improvizə edərdim. Ağacəfər öz şairliyində olan sənətkardır"*. Hər bir sənətkarın fərdi yaradıcılıq üslubu var. Müəyyənləşmiş üslub daxilində şair düşüncələrini dilə çevirir. Elə ona görə də Xələfli Ağacəfəri şairliyində olan sənətkar adlandırır. Və onun yaradıcılıq təbiətini *"çox vaxt sakit axan çaya bənzədir"*. Dağ çaylarına bələd olanlar onun gur axınını müşahidə edir. Ancaq təbiətdən, relyefdən asılı olaraq dağ çaylarında da suların göllənməyi var: *"Harda dərindir, harda dayazdır bilə bilməzsən"*. A.Həsənli haqqında müəllif deyir ki, bəzən yandırıcı şeirləri ilə alov kimi od çıxarıb dilini-ağzını pörşələyir...

Hər halda doğru qənaətdir. Çünki şairin şeirləri yandırıcı deyilsə, heç oxucunu da özünə tərəf çağıra bilməyəcək. Ağacəfərin Ə.Xələflinin də diqqətini çəkən bir şeirini burada oxucuya çatdırmaq sözümə qüvvət olardı:

Göy üzü ruzusun tökür,
yer başlayır kövşəməyə.
Buludlar torpağa çökür,
meh başlayır tövşüməyə.

Bu hava yetənə yetir,
yetməyir, daş atıb gedir...
Kim dumanı məcbur edir
dağda, daşda kişnəməyə.

Vaxt bivaxt, sərvaxt vaxt çapır,
gah yorğa gedir, gah sapır.
Göydə ildırım vaxt tapır,
dodağını dişləməyə.

Ə.Xələflinin poetik araşdırmalarında həssaslığı xüsusi əhəmiyyət kəsb edir. O, yaradıcılığının ən diqqəti çəkən əlamətlərini özündə əks etdirən bədii nümunələri çox duyğusallıqla seçə bilir. Həmin bədii nümunələrə həssaslıqla yanaşmasında misraların ahənginə uyğun şərhlərlə fikrini bildirir. Elə bu şeir haqqında da doğru yazır: *"Hətta elə bu şeirdə olduğu kimi, yarım sual, yarım nida həyəcanları ilə oxucusunu fikir qabağına qatıb qovur. Arxasınca daban basaraq gedir. Və maraqlıdır ki, onun sual və nidaqarışıq həyəcanları oxucu üçün işığa çevrilir. Əslində, oxucu həyəcanları ilə onu izləyən şairin işıq verdiyi yoldan kənara çıxa bilmir"*. Ağacəfər yaradıcılığı etibarilə iki dəst-xətti üslubuna çevirə bilib. Bunun biri ənənəvi poeziyadan gələn yoldur. Bu yolda S.Vurğundan başlanan böyük axın var. B.Vahabzadə ilə davam edən fəlsəfi fikir tutumlu yaradıcılıq dəst-xətti var. Təbiət doğmalığını poeziyaya çevirən H.Arif motivi var. Daha sonralar M.Araz, M.Yaqub və s. kimi şairlərin də uğurlu yaradıcılıq yolu ənənəvi poeziyamızın zənginləşməsində xüsusi əhəmiyyət kəsb edir. Bir yol da var ki, bu da zəngin ədəbi məktəbdir - Rəsul Rza yoludur. Onu da deyim ki, Ağacəfər R.Rza yolu ilə də uğurlu yaradıcılıq örnəkləri yaradan şairdir. Onun çox maraqlı şeirini diqqətə çəkməzdən əvvəl Xələfli belə bir söz önü göstərir: *"Ağacəfər sənətkarlığının müxtəlif tərəflərdən meyarını axtarmağa çalışmışam. Bəzən bu meyarı vaxt kimi qavramışam. Az keçməmiş görmüşəm ki, o vaxtla hesablaşmır. 2010-cu ildə nəşr olunmuş "Yağmur əlifbası" kitabının "Ön söz" əvəzi kimi verdiyi "Vaxta xitab" şeirindəki obrazı nəzərdə tuturam. Əvvəlcə, çağırış var, vaxtı saxlayıb onunla dilləşmək istəyi var. Vaxtın müxtəlif tərəflərdən şərhi var"*. Əgər diqqət edirsinizsə, Xələfli burada vaxtı müxtəlif yönümlərdən mahiyyətinə işarə edir və öz sözünün oxucuya daha aydın, daha rəvan çatması üçün Ağacəfərin maraqlı bir şeirini örnək gətirir:

Eyyy... hara gedirsən, səssiz gedirsən,
gedirsən güllə kimi - suyu süzülə-süzülə.
dala baxmadan.
Gedirsən, gedirsən, çata bilmirsən:
yolların qurtaracağında,
illərin qürub çağında,
sümüyə dirənir bıçaq.
Qabağa baxıram sən görünürsən,
arxaya baxıram sən görünürsən,
Eyyy, hara gedirsən, lal çaylar kimi,
suların dili var, eşidir axı,
sular yırğalanan beşikdir axı.
Gözə kül üfürür mum kimi sular,
Eyyy, hara gedirsən:
atlı, piyada,
suların üstündə: dağda, qayada.
İşıq sürətiylə: göydə, havada.
adam surətində azmırsan yolu,
"Quran" surəsində gedirsən elə.
Küləyin səsində itirsən elə.

Burada Ə.Xələfli "Şərhin poetik notları"na uyğun mülahizələrlə müəllifin bütöv şeirinin mahiyyətini diqqətə çəkən dəqiq və aydın fikir söyləyir: *"Bəzən də sualları ilə vaxtı sual qarşısında qoyur. Heç onun hakimiyyətinin hədsizliyinə, hüdudsuzluğuna belə baxmır"*. Aydın məsələdir ki, kitabın müəllifi Ağacəfərin poetik suallarını, mülahizələrini vaxt hakimiyyəti ilə müqayisədə meyara çəkir. Axı biz həmişə deyirik ki, ən böyük hakim vaxtdır. Amma onu da deyirik ki, bəzən elə qlobal düşüncə imkanları var ki, üzə çıxanda onun vaxta tabesizliyi də görünür.

Ə.Xələfli Ağacəfərin poeziyasında vaxt ölçüsünə tabe olmamaq məziyyətlərini də görür.

Demək, şair düşüncələrində o qədər müstəqildir ki, o, hətta vaxtın hakimiyyətini də qəbul etmir. Görünür, Xələfli yazısının başlığına çıxardığı "vaxtın inkarı" ifadəsini elə bu səbəbdən işlədib.

***(Davamı 11-ci səhifədə)***

*(Əvvəli 10-cu səhifədə)*

Hər şair özü necə ki, insan ayrıca bir qitədir - bütün hallarda onun kəşf olunan, olunmayan tərəfləri var. Hətta B.Vahabzadənin də məşhur bir sözü var. O insan haqqında deyirdi ki, *"İnsan göydə ay kimidir, görünməyən tərəfi var"* Doğru deyimdir və insana aid olanda daha böyük hikmət kəsb edir, məna, məzmun götürür. Belə düşünürəm ki, insanın da görünən və görünməyən tərəfləri hər halda vaxt məkanla daha çox bağlıdır. Çünki hər hansı bir şairin bu gün yazdığını cəmiyyət etirazla qarşılaya bilər. Hətta kütlə şairi daşlaya da bilər. Amma vaxt ötəndə, məkan dəyişəndə şairin ruhundan, varlığından gələn və əbədi həqiqəti əks etdirən hisslər, duyğular dəyərini itirməyən qızıl kimi başa düşənlərin düşüncəsində qiymətini alar.

Axı biz vaxtdan danışırdıq və Ağacəfərin də vaxtla sorunu asanlıqla bitmir. Yəqin ki, asanlıqla bitən motivin heç kökü də olmazdı.

Ağacəfərin vaxtla çəkişməsini göstərən şeirinin davamı oxucu üçün də maraqlı olar:

Nə əvvəlin bəlli, nə sonun bəlli,
demirsən "ağlamaz özü yıxılan".
Saata baxıram sən vaxt udursan,
udduğun bu vaxtı nə vaxt udursan.

Eyyy, hara gedirsən, ay qara dinməz?
Hamıdan kəsirsən,
özün kəsirsən...
İlsən, qərinəsən, yoxsa əsrsən?
Sürüşüb aradan elə çıxırsan,
adamın evini belə yıxırsan,
ay geridönməz,
ay qaradinməz.

Maraqlıdır, A.Həsənli vaxtla dilləşə bilir, onunla sorğulaşır. Hətta onu ittiham da edir. Amma hiss olunur ki, həm də vaxtın əzəmətini də dərk edir, vaxtın qüdrəti qarşısında tərəddüdləri də var. Və bu *şa düşəsən. Ağacəfər üçün - sözün qanadlarında ruhuyla Tanrının yanınacan qalxmış şair üçün məkan ölçü ola bilməz"*. Əslində, burada məkanla bağlı şair münasibətinin kifayət qədər izahı var və həm də elə bu izahların özü də poetik güc kəsb edir. Bu səbəbdən biz şairin *"yer-ada"* düşüncəsinin mahiyyətinə bütün aydınlığı ilə varmaq üçün elə onun öz poetik örnəyinə də diqqəti çəkə bilərik:

Bu adada ki, siz yaşayırsınız,
mənə elə gəlir, bir az yağış yağsa,
torpaq qalacaq su altında.
Bir az qar yağsa,
ada qalacaq qar altında.
...Hər tərəfiniz sudu,
Su tapmırsınız içməyə.
Körpü tapmırsınız keçməyə.
Hələlik balıqlar yeminizdir,
Ancaq bir gün siz balıqların
yeminə çevriləcəksiz.
Adanız tərəfə yan almış gəmilərə
Tərs-tərs baxırsınız -
Guya torpaq oğurlayacaqlar.
Bilirəm, siz adanızı qoruyursuz ki,
Adınızı qoruyasınız.

İnsan özünə həmişə yer axtarır, məkan axtarır. Ruhunun aram ola biləcəyi, özünü əmin-arxayın sanacağı bir yerin axtarışındadır. Düşünürəm ki, burada təkcə yer amili şərt deyil, həm də şairi mənəvi cəhətdən təmin edən mühit də məkan mənasında qavranılır.

Görünür, qədim insanın mağara ilə əbədi barışmamasının bir səbəbi də özünü təmin edə biləcək məkan axtarışı ilə bağlı olub.

Kitabda müəllif bu məqamları Ağacəfərin poeziyasının şərhinə əsaslanaraq çox qabarıq, kifayət qədər dəlilli, və eyni zamanda emosional çalarlarla verib: *"Şeirin sonunda isə məkana qapanmış, ada içindəki ərazini özünə qədim insanın mağarası kimi qucaqlayanları daha sərt ittihamlarla sözünün hədəfinə çevirir. Əslinə qalsa, məhdud məkan içində vurğunlu şairin yüksək olması düşüncələrinin aliliyi ilə ölçülür"*. *"Şərhin poetik notları"*nı bü cür duyğulu insan hisslərinin dərinliklərinə vara bilən gücdə əks etdirən lövhələri oxumaq yüksək estetik təsir bağışlayır. Sözün özünə nə qədər doğma olmalısan ki, söz səni bu ucalığa qədər qaldıra bilsin. Yəni düşüncələrinlə yüksək olmalısan, duyğularına ucalarda durmalısan, yəni həyatın xırdalıqları hisslərinə nüfuz etməməlidir.

Bəzən belə məqamlar insanda acı hisslər də doğurur. Birinin uğuruna sevinə bilməməyin faciəsi çox ağırdır. Paxıllıq, yarınma ilə həyat yaşayan insanın dərdi çəkiləsi deyil.

Belə məsələlər ətrafında düşünməli olsaq, sözümüzün sonuna yetə bilmərik. Çünki bu ovqat bizi daha çox uzaqlara aparar. Amma biz Ağacəfərin ecazkar poeziyası haqqında yazılmış, kifayət qədər dəyərli ədəbi-publisistik essenin motivlərini şərh etməyi əsas götürmüşük. Ağacəfərin yaradıcılığında zaman və məkan şairin döyüş obyekti olsa da, həm də onun yaradıcılığına təkan verən əsas obrazdır. Görünür, bu səbəbdən də *"Şərhin poetik notları"*nın



# AĞACƏFƏR "ŞƏRHİN POETİK NOTLARI"NDA

da elə təqdim olunan şeirdə kifayət qədər görünür. Vaxtla bu cür dilləşmənin şərhi Xələflinin də özünüifadəsində kifayət qədər təsirlidir: *"Amma tezliklə özünə də aydın olur ki, vaxt onun ölçüsü deyil, meyarı deyil. Və vaxtın da kəm-kəsirləri var. Çəkinmədən bu kəm-kəsirləri onun üzünə oxuyur. İstəyirsən ki, razılaşmayasan. Axı ən böyük hakimin vaxt olduğunu iddia edən filosofları necə danmaq olar. Şair öz məntiqi ilə vaxta sığışmadığı üçün onu inkar etməyə, onun kəm-kəsirlərini üzünə çırpmağa özündə cəsarət tapır. Və onu kifayət qədər özünə xas bir üslubda yamanlamağı da bacarır"*. Şairlər onsuz da ilhamın, hissin qanunları ilə yazıb-yaradırlar. Şairləri düşüncəsinə görə mühakimə etmək həmişə tarixi faciələrə səbəb olub. Ona görə də heç Ağacəfərin özünü də düşüncəsinə görə mühakimə etmək fikrimiz yoxdur. Əlbəttə, şair heç olmasa, müəyyən məqamlarda vaxtla hesablaşsaydı, tarixin acı səhifələrinə çevrilmiş olan şəxsi faciələrini yaşamazdılar.

Ağacəfər nə qədər asan qavranılan şairdirsə, bir o qədər, onun həm də asan qavranılmayan tərəfləri var. Bu da Ağacəfərin təkcə vaxtla yox, həm də məkanla savaşması ilə bağlıdır. Nəsimi də bir zaman "laməkan" ifadəsini tez-tez işlədib. Şair özünü laməkanlığa çəkirsə, deməк, həm də məkansızlıq iddiasındadır. Bu da dini, krelikal cəmiyyət üçün həmişə təhlükəli olub. Əlbəttə, şairin öz taleyi baxımından.

*"Şərhin poetik notları"*nda müəllifin bir sıra qənaətləri məhz Ağacəfərin yaradıcılığında özünü göstərən məkansızlıq anlamının izahını verir: *"Ağacəfər Həsənlinin yaradıcılıq meyarını dəqiq müəyyənləşdirməyin bir çətinliyi də onun vaxta sığmazlığından keçib məkanda hüdudlanmamağı ilə izah etmək olar. Yəni məkan anlayışında da Ağacəfər müəyyən sərhəddə qapanıb qalmır. Məkanı şairin dünyası kimi də başa düşmək olar, onu böyüdüb yetirən ərazi və mühit kimi də qavramaq olar. Şeirini yazmaq üçün "bəhanə" tapa bildiyi iki daşın arası kimi də qavramaq mümkündür. Amma Ağacəfər üçün yenə məkan ölçü olmur, meyar olmur. "Kiçik adanın sakinlərinə" şeirinin mahiyyətini, dərk etmək bəs edir ki, başa düşəsən.* ... *nuxanların əsas qorxusunu görür. Bu, adı itirmək qorxusudur. Ucuz şöhrətin, məkanın bəxş etdiyi mərtəbənin itirilmək qorxusudur"*. Müəllif bu şərhlərlə kifayətlənmir, sonra sanki şairin öz düşüncələri əsasında, özü də insanlara müraciət edir: *"Bu, xəbərdarlıqdır, özü də kifayət qədər ciddi xəbərdarlıqdır. Əgər bu xəbərdarlığı əsl mahiyyətinə çevirib oxusaq şair deyir: Siz dünyaya qucağınızı açın. Yalnız dünyaya doğmalıqla özünüzü xilas edə bilərsiniz. Burnunun ucundan o tərəfi görməyən hər kəsə aiddir bu xəbərdarlıq, eləcə də, erməni vandallarına. Zənnimcə, şair xəbərdarlığı elə, belə olmalıdır"*. Düşünürəm ki, elə Xələfli də burasını doğru deyir. Şairin xəbərdarlığı başqa cür necə olmalıdır? Yəni mən də öz düşüncəmlə şairin tərəfində dururam. Və xüsusilə, şairin qənaətlərinə tərəfdaram.

Ağacəfərin yaradıcılığında insan münasibətləri də xüsusi əhəmiyyət kəsb edir. Bəzən insanın haqsız yerə incidilməsi, hətta bu haqsızlığın ona qarşı tanıdığı mühitdən gəlməsi çox düşündürücüdür və eyni zamanda sarsıdıcıdır. Bütün bunları bir araya gətirməli olsaq, Ə.Xələflinin *"Şərhin poetik notları"* boyu insan düşüncələrinə münasibəti də nəzərdən kənarımızda qoya bilmərik: *"Biz nə vaxt sınırıq? Güvəndiyimiz insanların aynası sınanda, inandığımız ocaqlar sönəndə biz içimizdən sınırıq. Biz sındığımız anda dünyaya güvəncimizi itiririk. Düşünürəm ki, şair aləmi cəmiyyətin, insanlığın düşüncə istinadı, güvənc mənbəyidir. Şair zəmanəsinin bütün təhdidlərinə baxmayaraq, özünün səmasında ləngərli uçuşu ilə ona atılan daşlardan yuxarıdadırsa, onun qəlb aynası hər vaxt sağ və salamat olacaq. Deməк, onu güvənc bilən insanların da aynası salamat olacaq, ruhu qorunacaq. Bu mənada, şair məkan cılız hisslərlə, duyğularla yaşayanların əl yetəni deyil. Belinskisayağı desək, "şair nə qədər yüksək olursa, içərisində doğulduğu cəmiyyətə bir o qədər çox məxsus olur, onun istedadınını inkişafı istiqaməti və hətta xarakteri cəmiyyətin tarixi inkişafı ilə bir o qədər daha sıx bağlanır". Demək, şairin yüksək olması cismən boyunun hündür olması demək deyil. Fiziki baxımdan canlı-cüssəli olması deyil.* müəllifi Ağacəfərin yaradıcılığının əsas obrazlarına təkrar-təkrar qayıdır: *"Ağacəfərin poeziyasındakı məkanı dağıdan, laməkanlığa meyilli düşüncələri onun Belinski deyən yüksəkliyilə tam müvazidir. Şeirlərindəki təmənnasızlıq gücü onu sözün həqiqi mənasında məkana sığmaz edir. Və bütövlükdə onu insani varlığın övladı olaraq oxucu düşüncəsinə diktə edir. Səbəbi də odur ki, o, bir şair olaraq nə qədər məkanda mövcuddursa, nə qədər vaxta tabedirsə, bir o qədər də məkansızlıq aləmindədir. Çünki onun ruhu vaxta tabe olmadığı kimi məkanı da özünə sabit, isti bir bucaq hesab etmir. Düşünürəm ki, bütün bunların hamısı Allahla yer arasında, Tanrı ilə bəndə arasında güc mərkəzi ola biləcək söz sahibinə xas keyfiyyətdir. Elə buradaca deyəsən düşdüyüm qaranlıqdan gözlərini çəkən bir işıq görürəm. Və işığı tutub getdikcə, məkansızlıqdan, vaxtsızlıqdan ucada olan sözü görürəm. Və nəhayət belə bir fikir mənim düşüncələrimə hakim olur ki, Ağacəfər Həsənli böyük söz adamı olduğuna görə elə onun meyarının da söz olduğunu bilmək nə qədər çətin olsa da, son qənaətdir. Onun üçün sözün meyar olduğunu bilmək çətin olmaz. Əgər söz adlı çox orijinal şeirini oxumaq gücümüz olsa... Oxumaq təkcə göz deyil, həm də fikrən duymaqdır. Təkcə elə "Söz" sözünün özünü duymaq qədər"*.

Əlbəttə, burada yeridir ki, A.Həsənlinin yaradıcılığında xüsusi bir qabarıq xəttlə keçən obraza poetik münasibətini əks etdirən şeirini yada salaq, ancaq bir qədər sonra.

Məlumdur ki, Azərbaycan klassik ədəbiyyatında söz həmişə mühüm obraz olub, baş obraz olub. Nizami də sözü ucalara qaldırıb, Füzuli də sözün dirilik bəxş edəcək gücdə olduğunu deyib. Bütün hallarda ecazkar poeziyası ilə yaddaşlarda yaşayan şairlər sözü urvatda tutublar, hörmətdə görüblər. *"Şərhin poetik notları"*nda əsas motivlərdən biri də sözü verilən dəyərdir. Müəllif A.Həsənlinin sözə verdiyi dəyəri onun poetik örnəklərinin motivləri əsasında oxucuya çatdırmaq üçün elə sözdən qızıl körpü salır. Bu barədə gələn dəfə.

***(Davamı var)***